BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Təbiət elmləri seriyası 2013

# COĞRAFİYA

УДК 911.3

## AZƏRBAYCANDA URBANİZASİYANIN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**V.Ə.ƏFƏNDİYEV, F.E.QASIMOVA**
***Bakı Dövlət Universiteti***
***Fira-9@rambler.ru***

*Məqalə müstəqillik dövründən ehtibarən Azərbaycan Respublikası şəhərsalma və şəhər məskunlaşdırılmasına əhali-iqtisadi göstəricilərinə təsir edən amillərdən bəhs edir. Sonuncu siyahıyaalma göstərdi ki, əhalinin 53 %-dən çoxu şəhərlərdə yaşayır və sənayenin inkişafı ilə urbanizasiya prosesləri daha da genişlənir.*

*Müasir dövrdə cəmiyyətimizdə baş verən siyasi, iqtisadi və sosial dəyişikliklərin şəhər məskunlaşmasına təsiri, urbanizasiyanın müasir vəziyyəti və onun inkişaf istiqamətləri, urbanizasiya prosesində qarşıda duran əsas problemlər və onların həlli yolları göstərilmişdir.*

**Açar sözlər:** urbanizasiya prosesi, demoqrafik proses, şəhər məskunlaşması, qəsəbə

Müasir dövrdə cəmiyyətimizdə baş verən siyasi, iqtisadi və sosial dəyişikliklər respublikamızın şəhər məskunlaşmasına öz təsirini göstərir. Belə ki, Azərbaycan şəhərləri öz inkişafında yeni mərhələyə keçir, bu isə öz növbəsində onu bir sıra problemlərlə qarşılaşdırır.

Məskunlaşmanın mütərəqqi mərhələsi olan urbanizasiya bir çox iqtisadi və sosioloji əlaqələrə malikdir. Urbanizasiyanın inkişafı məhsuldar qüvvələrin yüksəlişi, məskunlaşmanın formalaşması ilə yanaşı, yaşayış məntəqələrinin funksional inkişafı ilə də bağlıdır. Müasir urbanizasiyanın xarakterik cəhətlərindən biri də onun elmi-texniki nailiyyətlər əsasında inkişaf etməsidir.

Ümumiyyətlə, urbanizasiya proseslərinin yaranmasında və inkişafında cəmiyyətin çoxtərəfli əlaqələri əks olunur. Bunlar isə kompleks coğrafi tədqiqat metodlarının tətbiqini tələb edir.

Urbanizasiya müəyyən tarixi mərhələlərdə, cəmiyyətin inkişafı ilə bağlı olub şəhər mühitini formalaşdırır. Bununla yanaşı, istehsal münasibətlərini, sənaye sahələrini və nəqliyyatın xarakterini əks etdirir. Bu proseslər eyni zamanda beynəlxalq aləm və mərkəzlərlə intensiv əlaqələrə malik olur.

Şəhər məskənlərinin ərazi aspekti və inkişafı ümumi urbanizasiya prosesinin xüsusiyyətləri ilə səciyyələnir.

Keçmiş sovet dövründə şəhərsalmada urbanizasiyanı nizamlayan konsepsiyalar formalaşdırılır, respublikalar və iri iqtisadi rayonlar üçün nəzərdə tutulmuş şəhərsalma prinsipləri, həyata keçirilirdi. Bu müddəalar nisbətən kiçik olan regionlara da şamil edilirdi. Bəzən yerli xüsusiyyətlər nəzərə alınmayaraq, məskunlaşma və şəhərsalma məsələlərində iqtisadi-coğrafi yanaşma kifayət dərəcədə istifadə olunmuşdur.

Mərkəz şəhərlərin inkişaf prosesi kimi urbanizasiyanın kənar əraziləri arasındakı fərqlər məskunlaşma ziddiyyətlərini ortaya çıxarır və bəzən də həmin ziddiyyətlərin müəyyən qədər aradan götürülməsinə kömək edir. Buna misal olaraq Bakı şəhərinin mərkəzi ilə onun ətraf yaşayış məntəqələri arasındakı nəqliyyatın, xidmət sahələrinin, istilik, enerji xidmətlərinin keyfiyyət və kəmiyyətcə fərqli olmasını, şəhər ətrafı rayonlara tətbiq edilən yeniliklərin ondan xeyli əvvəl şəhər mərkəzində özünə yer tutmasını göstərmək olar. Bunun da əsas səbəbi mütəmadi olaraq mərkəzi hissədə yeniliklərin və inkişafın olmasıdır.

Urbanizasiya prosesində qarşıda duran əsas məsələ əhalinin məşğulluq problemidir. Azərbaycanda müstəqillik illərdən (1991-ci il) başlayaraq başqa sahələrdə olduğu kimi, aqrar sahədə də tənəzzülün baş verməsi, təsərrüfatların dağılması kənd əhlisinin iş yerlərinin itirməsinə səbəb oldu. Regionlarda istehsal müəssisələrinin bağlanması, torpaqlardan istifadənin (əkib-becərilməsinin) çətinləşməsi əhalinin şəhərlərə, əsasən də Bakıya gəlməsinə səbəb olmuşdur.

Yaranmış iqtisadi böhran, əhalinin dolanacaq şəraitinin xeyli pisləşməsi, yeni bazar münasibətlərinə keçidin doğurduğu əlavə çətinliklər, xüsusən ticarətin liberallaşması nəticəsində Gürcüstan Respublikasında yaşayan soydaşlarımızın müəyyən hissəsi, habelə Azərbaycan rayonlarının minlərlə sakini qeydiyyatsız böyük şəhərlərdə (xüsusən Bakıda) daimi alver etməklə həmin şəhərlərin əhalisinin sayını xeyli artırmış və şəhərlərin infrastrukturunda böyük gərginlik yaratmışlar. Öncədən iş yerlərinin Bakı şəhərində cəmləşməsi, kənd və rayon əhalisini məşğulluq probleminin həlini şəhərdə axtarmağa məcbur edirdi.

Müstəqillik dövründən etibarən Azərbaycan Respublikası şəhərsalma və şəhər məskunlaşdırılmasının əhali-iqtisadi göstəricilərinə təsir edən ən başlıca amillərdən biri də miqrasiya prosesidir. Tamamilə planlaşdırılmamış, bu günə kimi baş verən xaotik miqrasiya prosesi, hər bir planlaşdırmaya və ümumiyyətlə, normal inkişafa ciddi təsir etmişdir.

Urbanizasiyanın inkişafı, xüsusən əhalinin miqrasiya çevikliyinin artması və son 20 ildə miqrasiya axınının böyük miqyas alması şəhər məskənləri əhalisinin cins-yaş, peşə, etnik tərkibində böyük dəyişikliklərə səbəb olmuşdur. Xüsusən əhalinin peşə və milli tərkibində əsaslı dəyişikliklər baş vermişdir. Yeni gələnlərin əsasən kənd yerlərindən olduğunu, gedənlərin isə fəhlə və qulluqçu olduğunu nəzərə alsaq şəhər əhalisinin peşə tərkibində baş vermiş

kəmiyyət və keyfiyyət dəyişiklikləri haqqında təsəvvür yaranır. Bu dəyişikliklər şəhərlə məşğulluq problemini xeyli gərginləşdirmiş, yeni gələnləri öz peşələri üzrə işlə təmin etməkdə əlavə çətinliklər yaratmışdır. Son illərin miqrasiya prosesləri nəticəsində şəhər məskənlərində azərbaycanlıların sayı əhalinin əksəriyyətini təşkil edir.

2009-cu ildə keçirilmiş son siyahıyaalmaya görə, hazırda Azərbaycan Respublikasında əhalinin sayı 9 milyon nəfərdən çoxdur. Bunun 53,1 % şəhər, 46,9 % isə kənd əhalisidir. Lakın bu rəqəm 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1806.7 min nəfər (şəhər – 16.9%, kənd – 83.1%), 1959-cu il siyahıyaalmasına görə, respublika əhalisi 3,684 mln. nəfər (şəhər – 47%, kənd – 53%), 1970-ci ildə əhalinin sayı 5,117 mln. (şəhər – 50%, kənd – 50%), 1979-cu ilə görə əhali 6,027 mln. (şəhər – 52,6%, kənd – 47,4%), 1989-cu ildə əhali 7,021 mln. (şəhər – 53,7%, kənd – 46,3%), 1999-cu ildə isə əhali 7,953 mln. (şəhər – 51%, kənd – 49%) olmuşdur. Gördüyümüz kimi urbanizasiya prosesi nəticəsində şəhər əhalisinin artmasına və kənd əhalisinin azalmasına səbəb olmuşdur.

Məlumdur ki, əhalinin yaşayış yerinə görə təsnifatı onun pasport qeydiyyatına görə təyin edilir. Lakin bu gün əhalinin bir hissəsi pasport qeydiyyatında rayonlarda olsa da, Bakı və Sumqayıt kimi iri şəhərlərdə yaşayır. Buna görə də şəhərlərdə yaşayanların sayı rəsmi statistikada göstəriləndən xeyli çoxdur. Azərbaycanda urbanizasiya, yəni kənd əhalisinin şəhərə axını prosesi gedir. Hal-hazırda Bakı şəhərində yaşayan əhalinin sayı haqqında müxtəlif rəqəmlər göstərilir. Bəzi qeyri-rəsmi məlumatlara görə şəhər və ətraf ərazilərində yaşayanların sayının 4 milyonu keçdiyi göstərilir. 2009-cu il son siyahıyaalınmaya görə rəsmi Bakı şəhərinin əhalisi 2 milyon 50 min nəfər, ərazisi isə 2,13 min $km^2$ olduğu bildirilir.

Planlı və nəzarət altında, düzgün siyasətə əsaslanacaq urbanizasiyanın bir çox müsbət cəhətləri vardır. Məsələn, elm və texnikanın səviyyəsi yüksəlir, mədəniyyət və incəsənətin səviyyəsi yüksəlir, ticarət və nəqliyyat inkişaf edir, istehsal edilən əmtəə və xidmətlərin keyfiyyəti artır, fikir mübadilələrində axıcılıq və canlanma yaranır, fikir müxtəlifliyinin inkişafı ilə məhsuldar bir təbəqə yarandığı halda regionlarda yaranan iqtisadi çətinliklər nəticəsində əhalinin şəhərə üz tutması paytaxtda əlavə problemlərin meydana gəlməsinə səbəb olur. Urbanizasiyanın müsbət cəhətləri ilə yanaşı mənfi nəticələri də vardır. Şəhərlərə axının çoxalması və əhali sıxlığı, bu regionda torpaqların tikililərlə örtülməsi, ekoloji şəraitin mürəkkəbləşməsi və şəhər əhalisinin işlə təmin olunmasında çətinliklərin yaranması, işıq, qaz, su, kanalizasiya və digər kommunal xidmətlər sahəsində əmələ gələn yüklənmə, havanın çirklənməsi kimi problemlər hiss olunur. Hal-hazırda Bakı şəhəri dünyanın bütün böyük şəhərlərində olduğu kimi urbanizasiyanın mənfi fəsadlarını yaşayır. Bu da şəhər sakinlərinin sağlamlığına mənfi təsir göstərir. Urbanizasiya prosesi nəticəsində ətraf mühitin, havanın çirklənməsi, yollarda nəqliyyatların yaratdığı tıxaclar, böyük səs-küy, in-

sanlarda stress hallarını artıraraq müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Göstərilən problemlərin Bakı şəhər aqlomerasiyası sistemində baxılması, bununla əlaqədar şəhərsalma proseslərinin tənzimlənməsi dövrün ən aktual məsələlərindəndir.

Azərbaycan Respublikası Prezidentinin «Bakı şəhərinin qəsəbələrinin sosial iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı»nın təsdiq edilməsi haqqında sərəncamı olmuşdur. Bu proqrama uyğun olaraq, həm şəhərətrafı qəsəbələrin və həm də onların daxil olduqları ayrı-ayrı inzibati rayonların yanacaq və enerji təchizatı, rabitə xidmətləri, ekoloji şəraitin mühafizəsi məsələləri, mədəniyyət, təhsil və səhiyyə sahələrinin inkişaf etdirilməsi və xidmətlərin yaxşılaşdırılması ilə yanaşı su təchizatı və kanalizasiya işlərini yaxşılaşdırmaq, yeni iş yerlərinin yaradılması, mənzil, yol təsərrüfatı və s. sosial-iqtisadi məsələlərin əsaslı həlli məqsədilə müxtəlif təyinatlı tədbirlərin yerinə yetirilməsi nəzərdə tutulmuş, gənclər və idman məsələlərinə də xüsusi diqqət ayrılmışdır.

Qəsəbələr Azərbaycanın yaşayış məntəqələrinin 5,5%-ni təşkil edir, respublika əhalisinin 15,1 %-ni özündə cəmləyir. Göründüyü kimi, qəsəbələr Azərbaycanın ərazi inzibatı bölgüsündə az bir pay təşkil etsə də, ölkənin aparıcı təsərrüfat sahələrində rolu çox böyükdür. Qəsəbələrin ölkənin idarəedici orqanında da rolu böyükdür. Hər bir qəsəbədə icraedici orqanın və bələdiyyələrin nümayəndəlikləri vardır və qəsəbələr ölkənin mərkəzi icraedici orqanlarının işində yaxından iştirak edirlər.

Azərbaycanda urbanizasiya prosesi 1870-ci illərdə «neft bumu» dövrünə təsadüf edir. Məhz o dövrdən başlayaraq ölkədə «şəhərləşmə» prosesi böyük vüsət almış, şəhərlərin sayı və əhalisi durmadan artmışdır. Ona görə də bu prosesin nəticəsi olaraq Azərbaycanda 1930-cu illərdə yeni tipli şəhər məskənləri-qəsəbələr əmələ gəlməyə başlamışdır. Bu qəbildən olan yaşayış məntəqələri öz tarixi inkişaf mərhələlərində, neft və qazın hasilatı və emalı ilə yanaşı, kənd təsərrüfatı məhsullarının emalı, pambıqtəmizləmə zavodlarının, konserv (meyvə-tərəvəz və balıq) sənayesi müəssisələrinin, balıq vətəgələrinin, daş və qum karxanalarının yaxınlığında, kurort-rekreasiya və turizm mərkəzlərində, dəmir yolu stansiyalarının ətrafında yaranmışdır. Nəhayət, inkişaf dövrlərini keçən bu yaşayış məntəqələri növbəti mərhələyə qədəm qoyublar. Belə ki, əhalisi sürətlə artan, təsərrüfat sahələrinin böyük potensialı olan qəsəbələr şəhər statusu alır, öz daşıdıqları funksiyaları genişləndirən yaşayış məntəqələri qəsəbəyə çevrilir, perspektivi olmayan yaşayış məntəqələri isə tənəzzülə məruz qalaraq ləğv olunurlar.

Azərbaycanda qəsəbələrin əmələ gəlməsi əsasən iki istiqamətdə olub:

1) Neft hasilatı və onun emalı olan ərazilərdə yaranan qəsəbələr;

2) Kənd yaşayış məntəqələrinin inkişaf edərək qəsəbələrə çevrilməsi.

Qeyd etmək lazımdır ki, qəsəbə anlayışı və onların əmələ gəlməsi SSRİ dövrünə təsadüf edir. Bu yaşayış məntəqələri kəndlərdən kəskin fərqlənərək

(bəzi hallarda əhalisinin ümumi sayına görə istisna olmaqla) yerinə yetirdikləri funksiyalarına və əhalisinin məşğuliyyətinə görə şəhər yaşayış məntəqələri ilə eynilik təşkil edirlər. Yəni şəhərlərdə olan həyat tərzi, şəhər mühiti və əhalinin məşğuliyyəti qəsəbələrdə də müşahidə edilir. Bu baxımdan fərqlər ondan ibarətdir ki, şəhərlərdə bu proseslər daha əhatəlidir. Məhz buna görə də qəsəbələrin tədqiqində onun nəzəri-metodoloji əsasları şəhərlərlə eynilik təşkil edərək (xüsusilə kiçik şəhərlərdə) urbanizasiya prosesinin təsiri altında inkişaf edir və vahid şəhər məskənlərini yaradır.

Azərbaycanda urbanizasiya prosesi kəndlərin tamamilə silinməsi anlamına gəlməməlidir. Əksinə, kənd təsərrüfatının modernləşdirilməsi və məhsuldarlığın artırılması nəticə etibarilə rəqabət qabiliyyətinin yüksəlməsinə gətirəcək. Kənd təsərrüfatı sahəsində qənaət edilən əmək resursları isə urbanizasiya prosesi çərçivəsində şəhərə transfer edəcək. Bu gün dünyada sürətlə genişlənən "rəqəmsal nəsil" Azərbaycanda da formalaşır və əmək resurslarının keyfiyyət və kəmiyyət etibarilə yeni mərhələyə qədəm qoyur.

Müstəqillik dövründən etibarən Azərbaycan Respublikası şəhərsalma və şəhər məskunlaşdırılmasının əhali-iqtisadi göstəricilərinə təsir edən ən başlıca amil miqrasiya prosesidir. Miqrasiyanın istiqaməti isə Bakı istiqamətinə yönəlmişdir. Tamamilə planlaşdırılmamış, bu günə kimi baş verən xaotik miqrasiya prosesi, hər bir planlaşdırmaya və ümumiyyətlə, normal inkişafa ciddi təsir etmişdir. Lakin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsilə əlaqədar (Bakı şəhərinin rayon və qəsəbələri, ölkənin regionları üzrə tədbirlər və s.) regionlarda vəziyyətin yaxşılaşmasına və bu proseslərin qarşısının alınmasına səbəb olmuşdur.

Respublikada miqrasiyanın ən «cəzbedici» qüvvəsi və miqdarı Bakı-Abşeron zonasına düşür. Paytaxta yaxınlaşdıqca miqrasiyanın miqdarı düz mütənasib artır və periferiya (kənar) zonalarında miqrasiyanın təsir qüvvəsi azalır. Lakin əhalinin fiziki dəyişməsi miqrasiya şəhərsalmanın digər atributları ilə tərs mütənasiblik təşkil edir. Yəni mərkəzə doğru əhali sıxlığı artdıqca ərazinin digər şəhərsalma göstəriciləri, norma və qaydalara riayət olunması və xaosun yüksəlməsi baş verir.

Urbanizasiyanın inkişafı, xüsusən əhalinin miqrasiya çevikliyinin artması və son 20 ildə miqrasiya axınının böyük miqyas alması şəhər məskənləri əhalisinin cins-yaş, peşə, etnik tərkibində böyük dəyişikliklərə səbəb olmuşdur. Xüsusən əhalinin peşə və milli tərkibində əsaslı dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər şəhərdə məşğulluq problemini xeyli gərginləşdirmiş, yeni gələnləri öz peşələri üzrə işlə təmin etməkdə əlavə çətinliklər yaratmışdır. Son illərin miqrasiya prosesləri nəticəsində şəhər məskənlərində azərbaycanlıların sayı əhalinin əksəriyyətini təşkil edir.

Urbanizasiyanın mənfi təsiri şəhərsalma prosesində də özünü göstərir. Bölgələrdən paytaxta üz tutan insanların müvəqqəti və ya daimi yaşayış yerilə - mənzillə təminatı çox ciddi problemdir.

Lakin yaşayış massivləri yaradılarkən inkişaf perspektivini əks etdirilən layihələşdirilmə istiqamətində deyil, pərakəndəlik həyata keçirilir. Belə yaradılan yaşayış massivləri böyük problemlər yaradır. Xüsusi olaraq nəqliyyatda, işıq, qaz, su təchizatında, kanalizasiya sistemində problem yaranan massivlərdə xüsusi olaraq əhalinin həddən ziyadə çox təmərküzləşməsi, toplanması böyük sosial problemlər yaradır və əhalinin bu vəziyyətinə, sosial durumuna çox mənfi təsir göstərir. Belə məskunlaşmasını nəzərə alaraq burada yaradılan hər bir yeni yaşayış massivlərinə ciddi yanaşılmalıdır. Yeni yaradılan yaşayış massivləri xüsusi olaraq mövcud imkanlar daxilində həyata keçirilməlidir. Yəni onun əhalisinin işlə təmin olma məsələləri, əhalinin sosial rifah halını yaxşılaşdıran tədbirlər nəzərdə tutulur. Əfsuslar olsun ki, yeni yaradılan bəzi yaşayış massivləri vulkanlara yaxın yerləşdirilir. Gələcəkdə bu yaşayış massivləri vulkan püskürmələrinə məruz qala bilər. Dövlət Layihə İnstitutunda Abşeronun yaşayış məntəqələrinin layihələşdirilməsi planında qaçqın və məcburi köçkünlərin nəzərə alınmaması həddən ziyadə problemlər yaradır. Bu isə müəyyən mənada böyük sosial problemlərin yaranmasına, xüsusi olaraq ətraf mühitin kəskin surətdə çirklənməsinə səbəb olur. Belə hallar layihələrdə nəzərdə tutulsa da inşaat işlərində heç də həmişə nəzərə alınmır. Ona görə də yeni salınan yaşayış massivləri aşağıdakı parametrlərə ərazi cavab verərsə, belə ərazilərdə yeni yaşayış massivlərinin salınması məqsədəuyğun hesab edilə bilər. Birinci növbədə bu ərazinin mövcud əhalinin işıq, qaz, su problemləri, nəqliyyat sistemləri ilə təmin edilmə məsələsi nəzərə alınmalıdır. Bunların nəzərə alınmaması gələcəkdə yeni yaradılmış yaşayış massivləri çox böyük problemlər yarada bilər.

Yaranmış vəziyyəti nizamlamaq üçün dövlət səviyyəsində əsaslı islahatlar aparılması zəruriyyəti yaranmışdır. Bazar iqtisadiyyatına keçid mərhələsində şəhərlər və şəhərin özünə xas problemləri meydana çıxır və öz həllini tələb edir. Bu yaşayış massivləri ümumi məskunlaşma sisteminin mühüm tərkib hissəsi olmaqla, ictimai və sosial həyatımızda əhəmiyyətli rol oynayırlar. Ətraf ərazilər şəhərin simasına, funksiyasına, onun əhalisinin həyat tərzinə güclü təsir göstərərək, ona ətalət verir. Belə yaşayış massivlərinin əhalisinin bir hissəsi dünənki kəndlilərdir.

Abşeron kimi urbanizasiya səviyyəsi yüksək olan ərazilərdə əhalinin daha çox məskunlaşması, urbanizasiya səviyyəsi aşağı olan ucqar ərazilərdə əhalinin azalması prosesi gedir. Şəhərlərdə urbanizasiyanın qarşısını almaq, geniş mənada yaxşılaşdırılmaq üçün ucqar regionlarda təsərrüfat strukturasında müasir tələblərə cavab verən şəhəryaradıcı - sənaye sahələrinin, maşınqayırmanın, elektrotexnikanın, yüngül sənayenin və s. inkişafına üstünlük verilməli, yeni iş yerləri açmalı, tarixi məşğulluq ənənələrinin bərpasının nəzərə alınması, əhalinin qaz, su, elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq, mədəni-intellektual mühit formalaşdırmaq, güzəştli kreditlər verilmək və şərtləri yüngülləşdirilməli, gənc mütəxəssislərin məvacibləri artırılmalı və onların bəzi kommunal xərcləri dövlət tərəfindən ödənilməlidir.

Dövlət, urbanizasiya siyasətini tənzimləmək məqsədilə bir sıra layihələrinin icrası istiqamətində müəyyən işlər görür. Regional iqtisadiyyatın formalaşmasına dəstək məqsədilə Dövlət proqramlarının qəbulu, gənc ailələrin mənzillə bağlı problemini həll etmək üçün İpoteka kreditləri layihəsinin və digər proqramların reallaşması insan resurslarının qorunmasına, idarə olunmasına hesablanıb. Urbanizasiya prosesi işsizlik, regional balansın pozulması və sosial xarakterli digər problemlərlə şərtlənir.

Qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadi və sosial-demoqrafik inkişafı mərhələsində, yəni iqtisadi islahatlar, suverenliyimizin verdiyi imkanlar, mülkiyyətin bütün formalarından istifadə etməyə şərait yaradılmasına baxmayaraq, məhsuldar qüvvələrin yerləşməsinin yeni konsepsiyası işlənib hazırlanmayıb. Hazırda əvvəlki idarəetmə və inkişaf prinsiplərinin bəziləri işə yaramır. Bununla yanaşı, keçmiş işlərin müsbət təcrübələrini yeni dövrün konsepsiyası ilə əlaqələndirməklə şəhərlərin inkişaf yollarını müəyyən edib, onların iqtisadi və sosial həyatlarını formalaşdırmaq lazımdır.

Urbanizasiya sosial prosesin, sənaye və şəhər nəqliyyatının inkişafının məcmusudur. Şəhər isə tarixi fenomen kimi konkret cəmiyyətdə yenilik törədən, öndə gedən obyektdir. Şəhər məskunlaşması başqa yaşayış məntəqələrinə nisbətən əhali məskunlaşmasının əsas aparıcı elementi olmaqla, istehsalın təmərküzləşməsinə, izafi məhsulların alınmasına təsir edən mühüm amildir. Bu proses kənd yaşayış məntəqələrindən fərqli olaraq sıx əhali məskunlaşmasına şərait yaradır və əhalinin yüksək fəallığına səbəb olur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası regionlarının 2009-20013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2009, 183 s.
2. Azərbaycan Respublikası Prezidentinin «Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncamı. Bakı, 27 fevral, 2006, №1338.
3. Azərbaycan regionları 2010, Bakı: ARDSK, 2010, 647 s.
4. Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafı. Bakı: ARDSK, 2006.
5. Əhalinin 2009-cu ildə siyahıyaalınmasının yekunları. Bakı: 2010.
6. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı: Nicat, 1995, 172 s.
7. Əfəndyev V.Ə. Urabanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti, 2002, 395 s.
8. Əfəndiyev V.Ə. redaktəsi ilə. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti, 2010. 470 s.
9. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda qəsəbə. Bakı, 2013, 218 s.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ УРБАНИЗАЦИИ В АЗЕРБАЙДЖАНЕ И НАПРАВЛЕНИЯ ЕГО РАЗВИТИЯ

**В.А.ЭФЕНДИЕВ, Ф.Э.ГАСЫМОВА**

**РЕЗЮМЕ**

В статье анализируются факторы, влияющие на градостроительство и городское расселение Азербайджана на современном этапе. Последняя перепись выявила, что более 53 % населения страны живет в городах, и с развитием промышленности урбанизационные процессы возрастают.

Выявлено влияние политических, социально-экономических изменений на городское расселение Азербайджана, современное состояние урбанизации и пути его развития.

**Ключевые слова:** процесс урбанизации, демографический процесс, городское поселение, поселок.

## THE CURRENT STATE OF URBANIZATION IN AZERBAIJAN AND DIRECTIONS OF ITS DEVELOPMENT

**V.A.AFANDIYEV, F.E.GASYMOVA**

**SUMMARY**

The paper analyzes the factors affecting urban planning and urban resettlement in Azerbaijan. The last census revealed that over 53% of the population lives in cities, and with the development of industrial processes urbanization processes increase.

The influence of political, social and economic progress of changes on the urban settlement in Azerbaijan, the current state of urbanization and ways of its development are revealed.

**Keywords:** urbanization, demographic processes, urban settlement, settlement

*Redaksiyaya daxil oldu: 17.09.2013-cü il*
*Çapa imzalandı: 29.10.2013-cü il.*